# Sorağı dünyaya yayılan toxuculuq dərnəyi





**5 ildir ki, Masallıda xanımlardan ibarət toxuculuq dərnəyi fəaliyyət göstərir. Burada çalışan xanımlar xalça, kilim, isti corablar, əlcəklər toxuyub, əl işlərini respublikada, xarici dövlətlərdə çox asanlıqla sata bilirlər. Dərnəyə gənc sahibkar Kifayət Talıbzadə rəhbərlik edir. O, Polşada universiteti bitirdikdən sonra doğulduğu Masallı rayonuna qayıdıb və bu dərnəyi yaradıb.**

Kifayət xanım deyir: - Polşadan qayıdanda eşitdim ki, rayonumuzun ayrı-ayrı kəndlərində gözəl əl qabiliyyətinə malik qadınlar evlərdə qədim el sənəti olan toxuculuqla məşğul olurlar. Amma nə qədər yaxşı, keyfiyyətli məhsul istehsal etsələr də, onları satmaqda çətinlik çəkirlər. Çətinlikləri aradan qaldırmaq üçün 2019-cu ildə bir toxucu qadınla birgə "AzərCorab" toxuculuq dərnəyini təşkil etdik. Sonra baxdım ki, bunu icma şəklində edə bilərəm. Bu, xanımların da ürəyincə oldu. İş genişləndi, icmaya daxil olan qadınların sayı artdı. Gənc xanımların kilimçilik sənətinin öyrənməsi üçün da şərait yaratmışıq. Bu da qədim, unudulmaqda olan el sənətimizin yaşatmaq baxımından böyük əhəmiyyət daşıyır. Kilimçilik sənətini gənc qızlara Məhbubə xanım öyrədir.

Beş il müddətində dərnəyin uğurları çox olub. Burada çalışan xanımlar isə Masallının müxtəlif kəndlərindən gəlir. Onlar toxuculuğu yaşatmaqla, həm də yaxşı qazanırlar. Müştərilər əsasən sosial şəbəkə vasitəsilə tapılır. Xanımların əl işlərinə Londondan, Fransadan, İtaliyadan, Almaniyadan, Amerikadan və Kanadadan daha böyük maraq göstərirlər.

Onu da öyrəndim ki, dərnəyin xammalı Türkiyədən gətirilir. Yaxın vaxtlarda isə xanımlar özləri yun əyirməyi, həmçinin təbii rənglərdən istifadə etməyi nəzərdə tutublar.

**Zəfər ORUCOĞLU**

Hürriyyət.- 2024.- 30 iyul, №28.- S.15.